MƏHSUL
Qəzet 1931-ci ildən nəşr olunur
Biləsuvar Rayonunun ictimai-siyasi qəzeti
№ 03-04 (8237) 29 fevral 2024-cü il

# YENİ ZƏFƏRİN MÜBARƏK, CƏNAB PREZİDENT!



Ardı 2-ci səhifədə

## BU SAYIMIZDA



2 Fevral Gənclər Günüdür
Səh. 3


MİLLİ QƏHRƏMAN MÜBARİZ İBRAHİMOVUN DOĞUM GÜNÜ QEYD OLUNDU
Səh. 3


"HADRUT, SƏN AZADSAN!" FİLMİ NÜMAYİŞ OLUNUB
Səh. 4


RİH BAŞÇISININ YERLƏRDƏ VƏTƏNDAŞLARLA GÖRÜŞ-QƏBULU DAVAM EDİR
Səh. 5


"XOCALI SOYQIRIMINI UNUTMA" MÖVZUSUNDA ANIM TƏDBİRİ
Səh. 4


ŞƏHƏRİN KÜÇƏLƏRDƏ APARILAN ABADLIQ VƏ TƏMİZLİK İŞLƏRİ DAVAM EDİR
Səh. 8

# YENİ ZƏFƏRİN MÜBARƏK, CƏNAB PREZİDENT!

Əvvəli 1-ci səhifədə

**Azərbaycan xalqının daha bir qürurlu, şərəfli günü olan 2024-cü ilin 7 fevralı Prezident İlham Əliyevin növbəti qələbəsi ilə tarixə yazıldı. Həmin gün ərazi bütövlüyü və suverenliyi tam təmin olunmuş müstəqil Azərbaycanda ilk prezident seçkisi keçirildi. Xalq ləyaqətlə, inam və sevgi ilə, necə deyərlər, el birliyi, səs çoxluğu ilə öz liderinə - İlham Əliyevə etimad göstərdi, daha 7 il onun dövlətə rəhbərlik etməsi üçün yolunda "yaşıl işıq" yandırdı.**

7 fevral Azərbaycan tarixini dəyişən bir gündür, 44 günlük savaşda qazanılan Zəfərin məntiqi davamıdır. Bu, təkcə İlham Əliyevin deyil, bütövlükdə xalqın zəfəridir, bütöv Azərbaycanın dörd bir yanında ucalan üçrəngli bayrağın möhtəşəmliyinə işıq tutan qələbədir. Bu, sülhün, əmin-amanlığın, inkişafın, gələcəyin zəfəridir. Bu zəfərin mənbəyi həmin gün xalqın nizami ordu kimi seçki məntəqələrinə doğru hərəkət etmələrindədir.



Xalq fevralın 7-də zəfərin və birliyin simvolu "dəmir yumruğ"un yanında dayandı, qorudu, sipər oldu, "Biz birlikdə güclüyük!" deyən İlham Əliyevin iradəsini, cəsarət və qətiyyətini, onu dünyada söz sahibi edən diplomatiyasını müdafiə etdi. 7 fevralda təkcə seçkidə iştirak edənlərin deyil, bütövlükdə 60 milyonluq azərbaycanlının ürəyi Azərbaycanda idi. O gün bütün gözlər seçki qutularına zilləndi, hər kəsin nəbzi eyni vurdu. Dünyanın hər yerində yaşayan soydaşlarımız "biz səninləyik, cənab Prezident, Ali Baş Komandan, səni sevirik!" dedi. Bunların nəticəsi olaraq Konstitusiya Məhkəməsi son qərarı verdi: İlham Əliyev 92,12 faiz səs çoxluğu ilə növbəti 7 il üçün Azərbaycanın Prezidenti seçildi.

Dünən isə İlham Əliyevin içdiyi and bu zəfərin məntiqi davamı olaraq nöqtəni qoydu.

Əslində, bu zəfərin başlanğıcı 2003-cü ildən gəlir. Həmin il oktyabrın 15-də Azərbaycan xalqı öz gələcəyini İlham Əliyevə etibar edərək onu Prezident seçəndə həm də Ulu Öndər Heydər Əliyevin xalqa müraciətini dəstəkləyirdi. Ulu Öndərin seçki ərəfəsində dediyi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" sözlərinin doğruluğunu İlham Əliyev ötən 20 ildə dövlətin sosial-siyasi, hərbi-iqtisadi, elmi-mədəni yüksəlişi ilə təsdiqlədi. 2003-cü ildə ilk andiçməsində dedi: "Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm. Əziz Prezident, əsəriniz olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik".

İlham Əliyevin 20 illik fəaliyyəti sübut etdi ki, bu sözləri gəlişigözəl olsun deyə söyləmədi, qısa bir müddətdə vədinə əməl etdi. İki onillik bir zaman kəsiyində "güclü iqtisadiyyat-güclü dövlət" formulunu reallaşdırdı. İqtisadi inkişafda neft-qaz sənayesini iqtisadiyyatın onurğa sütunu sayaraq neft amilinə önəm verdi, üstəlik də qeyri-neft sənayesinin inkişafını prioritetə çevirdi. Bu gün sosial müdafiə sistemləri, demək olar ki, modern üslubda həyata keçirilir, bu sahədə ciddi keyfiyyət dəyişikliyi müşahidə olunur. Xüsusilə də son 20 ildə vətəndaş rifahının təminatında əldə olunan uğurlar onu deməyə əsas verir ki, həmin yüksəlişin kökündə həyata keçirilən uğurlu islahatlar paketi dayanır.

Ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, ordu quruculuğuna diqqətin artırılması, Silahlı Qüvvələrin ən müasir silah, sursat, hərbi texnika və texnologiyalarla təchiz olunmasına yönələn kompleks tədbirlərin həyata keçirilməsi Prezident İlham Əliyevin ən böyük uğurudur. İki il öncə yerli televiziyalara verdiyi müsahibəsində Prezident belə bir fikir söyləmişdi: "Prezident seçiləndə mənim 42 yaşım var idi, təcrübəm də o qədər böyük deyildi və mən o vaxt beynəlxalq hüquqa inanırdım. Inanırdım ki, ədalət hardansa göydən düşüb bizim məsələmizi həll edəcək. Sonra başa düşdüm ki, ədaləti biz özümüz bərpa etməliyik". Bununla belə Prezident fəaliyyəti dövründə var gücü ilə çalışdı ki, həmin ədaləti bərpa etsin, dağılmış daşları yerinə qoysun. Nəhayət, buna nail oldu. Prezidentlik fəaliyyətinin 17 ilini torpaqların azad olunması məqsədilə hazırlıq işlərinə yönəltdi, ordunu zəfərə hazırladı, diplomatik cəbhədə Azərbaycanın üstünlüyünü təmin etmək üçün ən yüksək tribunalardan haqq səsimizi dünyaya çatdırdı. Azərbaycan tarixinə ən parlaq qələbəni yazdı, 30 illik həsrətə son qoydu.

44 gündə Ali Baş Komandanın ali keyfiyyətləri üzə çıxdı, dünya onu heyrətlə izlədi, vətən, yurd, torpaq sevgisinə təəccübləndilər. O, savaş günlərində dünyaya təkcə qalib sərkərdə, Müzəffər Ali Baş Komandan, qətiyyətli siyasətçi, adil dövlət başçısı, mahir diplomat kimi görünmədi. Belə bir həssas dönəmdə xalqın qarşısına çıxdı, sevindirici qələbə xəbərlərini çatdırdı. İllərlə yurd-yuvasından didərgin düşənləri torpağına qovuşdurdu. Ümidi sönməyən, inamı tükənməyən köçkünlərə 30 il sonra bundan gözəl hədiyyə ola bilməzdi. Doğma yurda köç həmin insanların gələcək yolunda işıq oldu. Bu köç indi xalqın sevdiyi və xalqını sevən müdrik rəhbər, qətiyyətli liderin zirvə nöqtəsidir.

Prezident 2003-cü ildə xalqın taleyini özünün taleyi seçərək dedi: "Ölkənin ən dəyərli sərvəti onun vətəndaşlarıdır". Məhz həmin zamandan xalqını daha çox sevdi, ona arxalandı, inandı və qorudu. Üstəlik də bu böyük sevgi ilə ərazicə balaca ölkəni ucaltdı. Çəkinmədən deyə bilərik ki, ötən iki onillikdə qazanılmış uğurların kökündə xalq-iqtidar birliyi dayanır. Onun müntəzəm olaraq rayonlara etdiyi səfərlər zamanı xalqla görüşləri, insanlarla qurduğu ünsiyyət, hər kəsi təmkinlə dinləməsi, problemi məhz onların dilindən eşitməsi və məsələnin həlli üçün yerindəcə tapşırıq verməsi həmin bütövlüyün bariz nümunəsi olmaqla yanaşı, həm də o xalqa olan hörmət, diqqət və qayğıdır. Fakt: 2016-cı ilin aprelində Ermənistan cəbhə xəttində təxribat törədəndə və nəticədə insanlar ev-eşiklərindən uzaq düşəndə yenə də onların harayına ilk çatan Prezident İlham Əliyev oldu. Onun dərhal təmas xəttinə gəlişi düşmənlə üz-üzə dəyanətini itirməyib dayanan insanlara inanılmaz ruh vermişdi. Bu həm də xalqın liderinin qətiyyət və mərdliyinin, xalqla bir olmasının gözəl nümunəsi idi.




Prezident İlham Əliyev çətin gündə də, xoş gündə də hər zaman insanların yanında olub, onlarla birgə sevinib, birgə kədərlənib. İlham Əliyevə insanların sonsuz sevgisini qazandıran da hər kəsin gözü qarşısında sərgilədiyi bu sadəlik və təvazökarlıqdır. Hələ onu demirik ki, şəhid ailələri ilə görüşəndə keçirdiyi hisslər, gözlərindəki kədər, üzündəki qəm dərhal ətrafına sirayət edir. O, bu cür həssas təbəqəyə qayğını və diqqəti tək özünün deyil, həm də cəmiyyətin əsas işi kimi ortaya qoyub. Şəhid ailələrinə mənzillərin, avtomobillərin açarlarını bir çox hallarda şəxsən özü təqdim edir və bunun bir dövlət başçısı üçün böyük şərəf olduğunu dilə gətirir. Prezidentin belə davranışı insanları ürəkləndirir, sabaha inamını artırır.

Bütün bu parametrlərin daşıyıcısı olan Prezidentin dünənki andiçməsi fərqli zamana təsadüf edirdi. İlham Əliyev 20 il əvvəl əlini ana qanunumuz olan Konstitusiyaya və müqəddəs Qurani-Kərimə basıb and içəndə hələ, özü demiş, siyasi oyunların dolanbac yollarından keçməmişdi. Elə bir zamanda iqtidara gəlmişdi ki, dünya köhnə dünya deyildi, hər yerdə, hər sahədə ədalət kölgədə qalmışdı. Bunlar Azərbaycana münasibətdə daha qabarıq hiss olunurdu, ikili standartlar ədalət tərəzisini üstələyirdi. Amma İlham Əliyev bütün bunları qısa müddətdə əlinin tərsi ilə geri çevirib ölkəmizi bugünkü Zəfərə çatdırdı. Sayca beşinci andiçmə mərasimi isə qətiyyətli, cəsarətli və iradəli liderin, dünyada söz sahibi olan Prezidentin yeni Zəfəri idi.

**Yeni Zəfərin mübarək, cənab Prezident!**

# 2 Fevral Gənclər Günüdür



**2 Fevral-Gənclər günü münasibətilə rayon gəncləri Heydər Əliyev Parkına gələrək dahi şəxsiyyətin abidəsi önünə tər çiçəklər düzüb, əziz xatirəsini ehtiramla yad ediblər.**

Rayon İcra Hakimiyyətində keçirilən tədbirdə çıxış edən Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov gəncləri təbrik edərək, onlara xoş arzularını çatdırıb. İcra başçısı qeyd edib ki,



dövlət səviyyəsində, məqsədyönlü şəkildə həyata keçirilən gənclər siyasəti nəticəsində bu gün ölkəmizin, cəmiyyətimizin həyatında gənclərin rolu əvəzsizdir. Gənclər bizim sabahımız, işıqlı gələcəyimizdir. Gənclər cəmiyyətin həyatında fəal iştirak edir, dövlət quruculuğu işlərində, müstəqilliyimizin və dövlətçiliyimizin inkişafında öz dəyərli töhvələrini verirlər.Məhz buna görə də əsasən gənclərdən ibarət olan müzəffər ordumuz Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günlük Vətən müharibəsində igidlik, şücaət göstərərək tarixi torpaqlarımızı düşməndən azad etdi.

Faiq Qürbətov gəncləri bir daha təbrik



edərək, onlara ölkəmizin və rayonumuzun ictimai-siyasi həyatında daha da fəal olmağa, ölkəmizin inkişafına böyük töhfələr verməyə çağırıb.

İcra başçısı rayonun ayrı-ayrı sahələrində fəaliyyət göstərən bir qrup gənci Fəxri Fərmanlarla təltif etdi.

Tədbirdə çıxış edənlər dövlət gənclər siyasətinin gənclərə töhfələrindən geniş danışaraq rayon gənclərinin böyük uğurlarından bəhs ediblər.

Tədbir Rayon Gənclər Evində gənclərin iştirakı ilə geniş konsert proqramı ilə davam etdirilib.

**Elnur Hüseynli**

# MİLLİ QƏHRƏMAN MÜBARİZ İBRAHİMOVUN DOĞUM GÜNÜ QEYD OLUNDU





***Vətən qaladır. Qalanı ucalıq mərtəbəsində tutan, ruhunun ucalığı bilən, sal qaya kimi düşmənin qarşısını kəsən oğullardır. Biri-birinə arxa-dayaq olan bu qayaların ürəkləri Vətən sevgisiylə, Vətən eşqiylə döyünür. Onlar Vətənimizin işıqlı sabahları, aydın səmaları üçün döyüşür, Vətən üçün can əsirgəmir, şəhadətləriylə ölümü ucaldıb ölümsüzlüyə, əbədiyyətə qovu-şurlar. Şərait qəhrəmanlar yaradır, qəhrəmanlar isə tarix. Vətən sevgisiylə bizlərin qüruru, vüqarı, fəxri, ölməzliyi, örnəyi olan Milli Qəhrəman Mübariz İbrahimov kimi.***

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günü ilə əlaqədar olaraq rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, rayon İcra Hakimiyyəti başçısı aparatının məsul şəxsləri və rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri Milli Qəhrəmanın Əliabad kəndində yerləşən ata ocağını ziyarət edərək ailəsi ilə görüşüb.

Faiq Qürbətov Milli Qəhrəmanın ailəsi ilə görüşdə Mübariz İbrahimovun göstərdiyi şücaətlə



Azərbaycan əsgərinin nəyə qadir olduğunu bütün dünyaya sübut etdiyini qeyd edərək bildirib ki, Mübariz qısa ömür yaşasa da canını vətən yolunda fəda etməsi ilə özündən sonra böyük bir igidlik, mübarizlik məktəbi qoydu. Hər bir azərbaycanlı onun mübarizə dolu həyatı ilə fəxr edir. Məhz 44 günlük Vətən müharibəsi bir daha göstərdi ki, bu gün Azərbaycan ordusunda Mü-bariz ürəkli minlərlə cəsarətli Vətən övladları yetişib və bu ordu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarını cəmi 44 gün ərzində azad etdi.

Görüşdə bildirildi ki, Azərbaycan xalqının qüruru, fəxri olan şəhidlərimizin xatirəsi daim əziz tutulacaq və dövlətimiz hər zaman şəhidlik zirvəsinə ucalan igidlərimizin ailələrinin yanında olacaqdır.

**Röyal Quluzadə**

# GƏNCLƏR GÜNÜ MÜNASİBƏTİLƏ RAYON GƏNCLƏR EVİNDƏ TƏDBİR KEÇİRİLDİ




**2 fevral gününün Gənclər Günü kimi elan olunması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndərin hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsas qoyuldu.1994-cü ildə dövlət gənclər siyasətini icra edən Gənclər və İdman Nazirliyi yaradılıdı.2 fevral 1996-cı il tarixində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan gənclərinin birinci forumu keçirildi. 1997-ci ildə forumun ildönümü münasibəti ilə Ulu Öndərin imzaladığı Sərəncama əsasən, hər il 2 fevral Azərbaycanda Gənclər Günü kimi qeyd olunmağa başlandı.**



Hazırda ölkə gənclərinin uğurlu fəaliyyətlərini bütün dünyada müxtəlif sahələrdə görə bilirik. Ölkəmizin daha da çiçəklənməsi üçün onların əməyinə, yaratma bacarığına ehtiyac var. Azərbaycan gəncləri qürur mənbəyimizdir.

Bayram münasibətilə keçirilən tədbirdəRayon İcra Hakimiyyəti başçısının müavini, ictimai, siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ləman Yüzbaşova, rayon Gənclər evinin direktoru Vəkil Cəfərli, Rayon Gənclər və İdman sektorunun müdiri Azad Quliyev və Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov çıxış edərək əlamətdar gün münasibətilə gəncləri təbrik etdilər. Dövlətin gənclərə olan diqqət və qayğısından bəhs edərək Vətən müharibəsində Azərbaycan gənclərinin göstərdiyi şücaət nəticəsində torpaqlarımızın düşmən tapdağından azad edilməsini vurğuladılar.



Rayon gənclərinin ölkənin hərbi, sosial-iqtisadi, ictimai-siyasi və digər sferalarda layiqincə təmsil olunması xüsusi qeyd edildi.

Tədbir geniş konsert proqramı ilə davam etdirildi.

Əziz Gənclər!

**Banuçiçək Mürsəlzadə**

# ”ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV İRSİNİN GƏNCLƏR ARASINDA TƏBLİĞİ”

**“Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdirg Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir.”**

**HEYDƏR ƏLİYEV**



Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi ilə rayon Yeniyetmə və Gəncləri İctimai Birliyi tərəfindən ”Ümummilli Lider



Heydər Əliyev irsinin gənclər arasında təbliği” layihəsi çərçivəsində keçirilən tədbirdə Biləsuvar Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Ziya Qurbanov, layihə rəhbəri Ülvi Həzizadə, YAP rayon təşkilatının sədr müavini Aqşin Qasımov, Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Elnur Hüseynli, həmçinin layihənin eksperti Elçin Həsənli və rayon gəncləri iştirak edib.

Əvvəlcə çıxış edən layihə rəhbəri dövlət gənclər siyasəti, Gənclər Fondunun fəaliyyəti, həmçinin layihənin əhəmiyyəti və təşkilatın regionda göstərdiyi fəaliyyət barədə tədbir iştirakçılarına geniş məlumat verib.Qeyd edib ki, bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş Dahi Şəxsiyyət Heydər Əliyev Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir.

Çıxış edən Rayon İcra Hakimiyyətinin nümayəndəsi Z.Qurbanov bildirib ki, xalqımızın Ümumilli lideri, müstəqil Azərbaycan Respublikasının qurucusu Heydər Əliyevin siyasi irsini, həyat və fəaliyyətini öyrənmək, araşdırmaq, gələcək nəsillərə aşılamaq, onun memarı olduğu dövlətçilik ənənələrini yaşatmaq hər birmizin borcudur.

Həmçinin çıxış edənlər Ümummilli Liderin Heydər Əliyev dühasının xalqı, vətəni yolunda etdiyi fədakarlıqlar, göstərdiyi xidmətlər,zəngin irsinin daha dərindən, hərtərəfli öyrənilməsi, onun yaratdığı milli dövlətçilik və azərbaycançılıq ideyalarının təbliği, Ulu öndərin gənclər siyasətinə geniş yer verməsi, gənclərin vətənpərvər ruhda inkişafında böyük əhəmiyyə kəsb etdiyini qeyd etdilər.



Tədbirdə layihədə fəal iştirak edənlərə sertifikatlar təqdim olunub.

**Aydan Əlizadə**

# "HADRUT, SƏN AZADSAN!" FİLMİ NÜMAYİŞ OLUNUB



**Rayon Icra Hakimiyyətinin təşəbbüsü və dəstəyi, Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə rayon Heydər Əliyev Mərkəzində Xocalı faciəsinin 32-ci ildönümü ilə əlaqədar "Hadrut, sən azadsan!" filmi nümayiş olunub. Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, filmin ssenari müəllifi Rasim İsmayılov, quruluşçu rejissoru Cavidan Şərifov, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri iştirak edib.**



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və şəhidlərimizin əziz xatirəsi yad edilib.

Sonra Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov çıxış edərək Azərbaycan Respublikasının Prezi-denti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azə-rbaycan Ordusunun böyük şücaət və qəhrəmanlıqla 44 gün müddətində işğal altında olan torpaqlarımızın azad edilməsindən danışıb. İcra başçısı bildirib ki, Vətən Müharibəsində tarix yazan qəhrəman Ordumuz, əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi. Ölkəmizin ərazi bütövlüyünün bərpası, doğma torpaqlarımızın düşməndən təmizlənməsi uğrunda gedən döyüşlərdə canlarını Vətən uğrunda fəda edərək xalqımıza qələbə sevincini yaşadan şəhidlərimizin ruhu əbədi olaraq yaddaşlarda yaşayacaq və hər zaman minnətdarlıqla anılacaqdır.

Tədbirdə Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov çıxış edərək film haqqında məlumat verdi. Bildirdi ki, filmdə Vətən müharibəsinin parlaq səhifələrindən biri - Xocavənd rayonunun Hadrut qəsəbəsinin azad olunması əməliyyatından bəhs edilir. Filmdə əməliyyata qərar verilməsindən əməliyyatın sona çatmasına qədər olan proseslər bütün detallarla canlandırılıb. Çəkilişlər əməliyyatın keçirildiyi məkanlarda aparılıb və məhz həmin döyüşlərdə iştirak etmiş döyüşçülər filmdə yer alıb.

Filmin ssenari müəllifi Rasim İsmayılov, quruluşçu rejissoru Cavidan Şərifov çıxış edərək filmin ikinci təqdimatının rayonumuzda keçirilməsinə



şərait yaradılmasına görə Rayon İcra Hakimiyyətinə öz minnətdarlıqlarını bildiriblər.

Sonda filmin təqdimatı keçirilib.

**Taleh Cəfərov**

# SƏFƏRBƏRLİK VƏ HƏRBİ XİDMƏTƏ ÇAĞIRIŞ ÜZRƏ DÖVLƏT XİDMƏTİNİN YARADILMASININ 12-Cİ İLİ QEYD OLUNDU



**13 fevral 2024-cü il tarixdə rayonumuzda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının 12-ci ili qeyd olundu.**

Tədbirdə rayon İcra Hakimiy-yətinin Başçısı Faiq Qürbətov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin əməkdaşları, hüquq-mühafizə orqanlarının rəhbərləri, şura üzvləri iştirak etdi.

İştirakçılar əvvəlcə Heydər Əliyev parkında Ulu Öndərin abidəsini ziyarət etdilər,



əziz xatirəsinə tər çiçəklər qoydular.

Rayon İcra Hakimiyyətinin Başçısı Faiq Qürbətov xidmətin işçilərini peşə bayramları münasibətilə təbrik edərək onlara fəaliyyətlərində uğurlar arzuladı. Bildirdi ki, 2012-ci il fevralın 13-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmışdır. Fərman vətəndaşların hərbi xidmətə çağırışı sahəsində idarəetmə strukturunun təkmilləşdirilməsi, onun müasir tələblərə uyğun qurulması



məqsədini daşıyırdı. Keçən müddət ərzində xidmət və onun rayon şöbəsi tərəfindən xeyli iş görülmüş, əməkdaşlar üzərilərinə düşən mühüm və məsuliyətli vəzifələrin öhdəsindən layiqincə gəlmişlər.

Çıxış edənlər peşə bayramları münasibətilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin işçilərinə öz təbriklərini bildirdilər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin rəisi Nağı Cəfərov çıxış edərək onlara göstərilən bu yüksək diqqət və qayğıya görə öz minnətdarlığını bildirdi.

**Bəhruz Əliyev**

# "XOCALI SOYQIRIMINI UNUTMA" MÖVZUSUNDA ANIM TƏDBİRİ



**Tədbir öncəsi məktəblilərin əl işlərindən ibarət "Xocalı harayı" adlı rəsm sərgisinə baxış keçirildi.**

Xocalı qoyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbiri giriş sözü ilə açan Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin rayon üzrə gənclər və idman sektorunun müdiri Azad Quliyev, Gənclər evinin direktoru Vəkil Cəfərli, Şirvan-Salyan Regional Təhsil idarəsinin rayon üzrə təhsil



sektorunun müdiri Anar Xammədov Xocalı soyqırımı haqqında məktəblilərə məlumat verərək, Xocalı faciəsinin XX əsrin ən dəhşətli və ən qəddarcasına törədilmiş faciələrindən biri olduğunu və amansızlığına, qəddarlığına görə bəşər tarixinə qanlı iz saldığını qeyd etdilər. Bildirdilər ki, 1992-ci il fevralın 25-dən 26-sına keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərində genosid aktı həyata keçiriblər. Yüzlərlə günahsız insan kütləvi şəkildə məhv edilibi, qocalar, qadınlar, uşaqlar, hətta südəmər körpələr ən dəhşətli üsul və vasitələrlə qətlə yetiriliblər, girov götürülərək, insanlığa sığmayan həqarət və təhqirlərlə üzləşməli oldublar. Xocalı soyqı-



rımı zamanı 613 nəfər öldürülüb, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olub, 8 ailə tamamilə məhv edilib , 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirib. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülüb, onların 150-sinin taleyi indi də məlum deyil. Ermənilər hətta erməni xisləti ilə meyitləri belə təhqir etməkdən çəkinməmişlər.

Natiqlər eyni zamanda, 44 gün davam edən və işğal altındakı ərazilərimizin, cümlədən, Xocalının azad olunması ilə nəticələnən Vətən müharibəsinin tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilməsindən danışdılar.

Sonda "25 böyüməyən uşaq" adlı film nümayiş etdirildi.

**Əlisəfa Qənbərov**

# "QARABAĞ AZƏRBAYCANDIR!" MÖVZUSUNDA "NƏ? HARADA? NƏ ZAMAN? İNTELLEKTUAL OYUNU



Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin rayon üzrə gənclər və idman sektorunun Şirvan-Salyan Regional Təhsil İdarəsinin rayon üzrə təhsil sektoru ilə birgə təşkil etdiyi "Qarabağ Azərbaycan-dır!" mövzusunda "Nəə Haradaə Nə zaman" intellektual oyununda ümumilikdə 6 komanda



üzrə 36 gənc iştirak etdi.

2 turdan ibarət yarışın sonunda Əsgərabad kənd tam orta məktəbin "Lahza" komandası I yerə, Ağayrı kənd tam orta məktəbin "Zəfər" komandası II yerə, İsmətli kənd tam orta məktəbin "Madrid" komandası isə III yerə layiq görüldü.



Mükafatlandırma mərasimində çıxış edən sektor müdiri Azad Quliyev bildirdi ki, yarışın keçirilməsində əsas məqsəd Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin tarixi, mədəniyyəti, coğrafiyası, tanınmış şəxsiyyətləri, tarixi abidələri barədə gənclərin məlumatlılıq səviyyəsinin artırılması, gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsi və gənclərin intellekt səviyyəsinin artırılmasıdır.

Sonda qalib komandalar Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin diplomları ilə təltif edildilər.

**Mülazim Rzayev**

# RİH BAŞÇISININ YERLƏRDƏ VƏTƏNDAŞLARLA GÖRÜŞ-QƏBULU DAVAM EDİR







Prezident İlham Əliyevin icra hakimiyyəti başçıları, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri ilə görüşləri zamanı dövlət məmurları haqqında səsləndirdiyi fikirlər, onlara daim xalqın içində olmaları, icra başçılarına bütün kəndləri gəzmələri, sakinlərlə görüşmələri, vətəndaşların qayğılarını öz dillərindən eşitmələri, problemlərini yerində öyrənmələri, düzgün təhlil aparmaları barədə verdiyi tapşırıq və tövsiyələr bir məqsədə xidmət edir ki, arxasında vətəndaş amili dayanır.

Ölkə başçısının insanlara layiqli xidmət göstərilməsi, vətəndaş məmnunluğunun təmin edilməsi, vətəndaşların qayğılarına həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları rayonumuzda olduğu kimi icra edilir. Əhalini narahat edən problemlərin yerlərdə birbaşa həlli və sosial əhəmiyyətli sifarişlərin müəyyən edilməsi məqsədilə şəhər və kəndlərdə yenidən keçirilən səyyar qəbullar bunun əyani sübutudur.

Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən vətəndaşların müraciətlərinə cənab Prezidentintələblərinə uyğun olaraq yanaşılır, əhalini narahat edən problemlərin qısa müddətdə operativ qaydada həlli üçün konkret tədbirlər görülür, qaldırılan məsələlərin həlli vaxtında həyata keçirilir.

Fevral ayında RİH başçısı təsdiq olunmuş qrafika uyğun olaraq Əsgərabad, Ağayrı, Dərvişli və Ağalıkənd kəndlərində də vətəndaşlarla səyyar görüş-qəbul keçirmişdir.

Səyyar qəbullarda Milli Məclisin deputatı Bəhruz Məhərrəmov,rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon İcra Hakimiyyəti başçısının müavinləri, şöbə müdirləri, dövlət orqanlarının yerli idarələrinin, xidmət sahələrinin rəhbərləri və kənd sakinləri iştirak edib.

RİH başçısı Faiq Qürbətov əvvəlcə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda və rayonumuzda görülən işlər barədə kənd sakinlərinə ətraflı məlumat verib.

Başçı bildirib ki, regionların sosial-iqtisadi inkişafına böyük diqqət yetirən dövlət başçısının hərtərəfli qayğısı sayəsində davamlı olaraq bütün problemlər aradan qaldırılır və əhalinin sosial rifahına yönəlmiş tədbirlər bundan sonra da davam etdiriləcəkdir. Rayonda keçirilən istər səyyar qəbullarda, istər də fərdi şəkildə aparılan qəbullarda səsləndirilən hər bir müraciət diqqətlə araşdırılaraq qanunvericiliyə uyğun icrası təmin olunur.

Vətəndaşlarımızı narahat edən ən kiçik müraciət, problem belə diqqətdən kənarda qalmır. Təbii ki, aparılan bütün bu tədbirlər əhalimizin rahatlığının təminatına, güzəranının yaxşılaşdırılmasına xidmət edir və görülən bu məqsədyönlü işlər bundan sonra da davam etdiriləcəkdir. Ötən qəbul zamanı qaldırılan məsələlərin həlli ilə bağlı görülən işlər barədə vətəndaşlara məlumat verildi.

Daha sonra sakinlərin təklifləri, istəkləri dinlənilib və onları narahat edən problemlər məsul şəxslərin iştirakı ilə araşdırılaraq həlli ilə bağlı tədbirlər müəyyənləşdirilib. Həlli vaxt tələb edən məsələlər nəzarətə götürülməklə aidiyyəti təşkilat rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

Başçının yerlərdə keçirdiyi səyyar görüş-qəbulları razılıqla qarşılayan sakinlər, göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**Hüseyn İbayev**

## RİH başçısının yerlərdə mart ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| S/S | Qəbulun keçiriləcəyi inzibati ərazi dairəsinin adı | Qəbulun keçiriləcəyi yer | Qəbul günləri | | | |
|---|---|---|---|---|---|---|
| | | | 05.03.24 | 07.03.24 | 12.03.24 | 14.03.24 |
| 1 | Əliabad kəndi | Əliabad kənd tam orta məktəbi | + | | | |
| 2 | Bağbanlar kəndi | Bağbanlar kənd tam orta məktəbi | | + | | |
| 3 | Çaylı kəndi | Çaylı kənd tam orta məktəbi | | | + | |
| 4 | Təzəkənd kəndi | Təzəkənd kənd tam orta məktəbi | | | | + |

*Səyyari qəbullarda iştirak etmək istəyən vətəndaşlara İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyə qabaqcadan müraciət etmələri tövsiyə olunur.*

# "ERKƏN NİKAH-NATAMAM GƏLƏCƏK" MÖVZUSUNDA MAARİFLƏNDİRMƏ TƏDBİRİ







**Şirvan-Salyan Regional Gənclər və İdman rayon üzrə gənclər və idman sektorunun təşkilatçılığı ilə "Erkən nikah-natamam gələcək" mövzusunda keçirilən maarifləndirmə tədbirində Rayon İcra Hakimiyyəti başçısının müavini Ləman Yüzbaşova, Ombudsmanın Cənub Regional Mərkəzinin rəhbəri Ziya İsmayılov, valideynlər və ümumtəhsil məktəblərinin şagirdləri iştirak etdilər.**

Maarifləndirmə tədbirini giriş sözü ilə rayon üzrə gənclər və idman sektorunun müdiri Azad Quliyev açaraq rayonda nikah, boşanma, erkən nikah halları ilə bağlı statistik göstəricilər haqqında tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. Tədbirdə Rayon İcra Hakimiyyəti başçısının müavini Ləman Yüzbaşova çıxış edərək rayonumuzda erkən nikah hallarının qarşısının alınması məqsədilə aparılan işlərdən, mütəmadi olaraq həyata keçirilən müxtəlif tədbirlərdən bəhs etmiş, bütün aidiyyəti dövlət qurumlarının erkən nigah hallarına qarşı birgə fəaliyyətinin önəmini bir daha vurğulamışdır.

Sonra ombudsmanın Cənub Regional Mərkəzinin direktoru Ziya İsmayılov öz erkən nikah hallarının cəmiyyət üçün yaratdığı fəsadlardan, bu cür halların gənc qızların təhsildən yayınmasına və səhhətlərinə birbaşa təsirindən söhbət açmış, valideynləri məlumatlı olmağa bu istiqamətdə maariflənməyə səsləmişdir.

Tədbirdə bu sahə üzrə güclü təbliğat işinin aparılması, maarifləndirmə tədbirlərinin mütəmadi olaraq keçirilməsinin vacibliyi vurğulandı, aidiyyatı strukturların imkan və qüvvəsindən lazımınca istifadə olunmağı diqqətə çatdırıldı.

Gəncləri maraqlandıran suallar cavablandırılması, müzakirə olunan mövzu ilə əlaqədar videofilm nümayiş ilə tədbir başa çatmışdır.

**Ağca Ağayeva**

# "GƏNCLİYİMİZİ QORUYAQ - NARKOMANİYAYA YOX DEYƏK"




**Narkomaniya bəşəriyyətin ən böyük problemlərində biri olub, günü-gündən gənclərino cümlədən yeniyetmələrin bu bəlaya daha çox yaxalandığını eşidirik. Hər ötən il bu problemin yaşı cavanlaşır. Beləki, 13-14 yaşlı yeniyetmə gənclər belə bundan əziyyət çəkir. Dünyanın müxtəlif ölkələrində narkomaniyanın qarşısını almaq və fəsadlarını azaltmaq üçün tədbirlər həyata keçirlir. Ölkəmizdə də hər il bununla bağlı maarifləndirmə aparılır.**



Rayon İcra Hakimiyyətinin, Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin rayon üzrə gənclər və idman sektorunun, Şirvan-Salyan Regional Təhsil İdarəsinin rayon üzrə təhsil sektorunun və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Gəncliyimizi qoruyaq-narkomaniyaya yox deyək" mövzusunda maarifləndirmə tədbirində çıxış edən natiqlər, bütün bəşəriyyəti düşündürən və narahat edən ən ciddi problemlərdən biri olan narkomaniya və onun törətdiyi fəsadlar haqqında danışıblar. Qeyd olunub ki, Azərbaycan dövləti narkomaniyaya qarşı ciddi şəkildə mübarizə aparmaqla yanaşı, onun yaratdığı problemlərin aradan qaldırılması istiqamətində də müxtəlif tədbirlər həyata keçirir.

Çıxış edənlər narkomaniya ilə mübarizə və bu sosial bəlanın bütün cəmiyyəti əhatə etməməsi üçün beynəlxalq təcrübədə əsas istiqamətlərdən sayılan maarifləndirmə, təbliğat və profilaktika işlərinin daha düşünülmüş, səmərəli şəkildə aparılmasının vacibliyini vurğulayıblar.

Gənclər narkomaniyaya qarşı mübarizədə gənclərin xüsusi rolunu qeyd edərək, bundan sonra da davamlı olacağını bildiriblər.

Daha sonra gəncləri maraqlandıran suallara aydınlıq gətirilib və mövzu ilə əlaqədar maarifləndirici videoçarx nümayiş olunub.

**Məhərrəm Qurbanov**

# BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR AZƏRBAYCANDA MİLLİ BİRLİYƏ ŞAHİDLİK ETDİLƏR

**Prezident seçkilərinin uğurla başa çatması nəinki ölkəmizdə, bütövlükdə regionda azad, demokratik seçki ənənələrinə mühüm töhfə oldu. Konstitusiyanın 54-56 və 71-ci maddələrinə müvafiq olaraq, Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak, dövlətin idarə olunmasında iştirak, dövlət orqanlarına seçmək və seçilmək hüququna təminat verilir. 7 fevral seçkilərinin ilk xarakterik göstəricilərindən biri Konstitusiyada təsbit edilmiş bu hüquqları gözləmək və qorumaq üçün bütün aidiyyəti orqanların səfərbər edilməsi oldu.**

Seçkilərə hazırlıq, seçki prosesi, səslərin hesablanması, səsvermənin yekunlarının müəyyən edilməsinin açıq və aşkar həyata keçirilməsi prosedurlarında heç bir əngəl, yaxud narahatlıq doğuran məqamlar müşahidə olunmayıb. Seçki Məcəlləsinin tələblərinə müvafiq olaraq, prezident seçkilərinin təşkili və keçirilməsi tam, bərabər və qərəzsiz, tətbiq olunan qanunlara əsaslanaraq realizə olundu, qanun çərçivəsində hər bir siyasi partiyaya, namizədə, seçiciyə və seçki kampaniyasının digər iştirakçılarına ədalətli və bərabər münasibət təmin edildi. Həmçinin qanun əsasında seçicilərə, seçki hərəkətlərinin həyata keçirilməsində iştirak etmək hüququ olan şəxslərə sənədlərlə və məlumatlarla tanış olmaq üçün hər bir şəraitin yaradılması, birmənalı və aydın anlaşılmaqla müntəzəm xarakterli kommunikasiya imkanı təmin olundu. Eyni zamanda seçicilərin seçkilərdə iştirakı üçün Seçki Məcəlləsinə müvafiq olaraq bütün tədbirlər öncədən görüldü, o cümlədən inklüzivliyin təmini üçün xüsusi şəraitin yaradılması, həssas təbəqədən olan şəxslərin, habelə uzaq və ya yolu çətin olan yerlərdə yaşayan seçicilərin seçkilərdə iştirakı üçün bütün imkanlar yaradıldı. Seçicilər, qeydə alınmış namizədlər, siyasi partiyalar və müşahidəçilər üçün istənilən pozuntu ilə bağlı işlək, aşkar, səmərəli və çatımlı şikayət mexanizmləri təmin olundu.

Seçkilərdə rahat fəaliyyətləri üçün hər bir şəraitlə təmin olunmuş beynəlxalq müşahidəçilər də proseslərin gedişatını maneəsiz izləmək imkanında idilər. "Sağlam məqsədlər güdən hər bir müşahidəçi aydın formada şahidlik etdi ki, Seçki Məcəlləsinin tələbləri və beynəlxalq standartlar tam formada təmin olunur. Mətbuat azadlığına hörmət bəslənməsi, öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə hər hansı maneəyə yol verilməməsi, namizədlərin kampaniyalarına müdaxilə edilməməsi, seçkiqabağı təşviqat materiallarının sərbəst yayılması, seçicilərin öz iradəsini azad və sərbəst bildirməsi, seçki komissiyalarının fəaliyyətlərinə əsassız müdaxiləyə yol verilməməsi seçkilərdə demokratiyanın təntənəsi idi. Əsas məqsədi seçki prosesini sağlam formada müşahidə etmək olan beynəlxalq müşahidəçilər də, təbii ki, bu proseslərə adekvat reaksiya verdilər. "Exit-poll"un nəticələrinin açıqlanmasının ardınca beynəlxalq müşahidəçilərin də rəyləri səslənməyə başlandı", - deyə o əlavə edib.

Müşahidələrdə qarşıya qoyulan yeganə məqsəd seçkilərin azad və demokratik şəraitdə keçirilməsinə, xalqın iradəsinin ifadəsinin sərbəst formada reallaşmasına nail olmaqdır. 7 fevral seçkilərində seçki hüququna malik 80 faizə yaxın vətəndaşın aktivlik göstərməsi, seçkilərin nəticələrinə görə İlham Əliyevin 92 faizdən artıq səs toplaması göstərdi ki, xalqımız bu seçkiyə həm də milli məsələ kimi yanaşırmış.

Azərbaycan xalqı 7 fevralda ölkədə milli iradədən daha qüdrətli heç nəyin olmadığını nümayiş etdirdi: "Xalqımız milli iradənin yalnız İlham Əliyevin təmsil edə biləcəyinə əmindir. Azərbaycan xalqı Vətən müharibəsində olduğu kimi, prezident seçkilərində də birlik, bərabərlik, həmrəylik göstərməklə, əslində, istənilən təhdidin qarşısında qırılmaz milli əzmin dayanacağını, milli iradənin Heydər Əliyev kursu və şəxsən cənab İlham Əliyev tərəfindən təmsil olunacağı dövrdə xalqın heç bir təhdidə boyun əyməyəcəyini bəyan etmiş oldu".

Dünyanın nəhəng gücləri, əsas qlobal oyunçular olan Çin, Rusiya, Türkiyə, bütövlükdə türk dünyası və digər çoxsaylı nüfuzlu siyasətçilərin cənab İlham Əliyevi elə ilk 12 saat ərzində təbrik etməsi beynəlxalq aləmin Azərbaycan xalqının milli iradəsinə hörmətlə yanaşdığını və hesablaşdığını göstərir. Bütün bu amillərə, beynəlxalq müşahidəçilər də şahidlik etdi, açıqlanan rəylər bu mənada adekvat və qərəzsiz oldu: "Təbii ki, məqsədi seçkiləri müşahidə etmək deyil, təxribatçılıq olan, hazır direktivlərə malik qüvvələrin sədalarını da eşitdik, lakin milli iradənin, xalqın Heydər Əliyev siyasi kursuna sağlam, qüvvətli və dayanıqlı dəstəyinin qarşısında bu səslər eşidilməzdir. İstər beynəlxalq standartlarla, istərsə də milli qanunvericiliklə seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə, milli iradənin suverenliyinə hörmətlə yanaşılması hər kəsin borcudur".



**Bəhruz Məhərrəmov, Millət vəkili**

# YENİ DÖVRÜN YENİ ÇAĞIRIŞLARI

7 fevral 2024-cü il tarixində keçirilən Prezident seçkiləri müasir Azərbaycanın siyasi tarixinin olduqca mühüm mərhələsi idi. Bələki yaşadığımız regionda və bütövlükdə dünyada cərəyan etməkdə olan geopolitik dəyişikliklər bir sıra mühüm yeniliklərin olmasını ölkəmiz üçündə aktual edirdi. Prezident seçkiləridə məhz bu yeni dövrün yeni çağırışlarının vacib, zəruri addımı oldu. Bu mənada seçkidən sonra Prezident İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi fikirlər dövlətimizin gələcək hədəflərini bəlirləyən konseptual məzmunlu tarixi çıxış idi. Hələ ötən ilin sonunda Dünya azərbaycanlılarının həmrəylik günü və yeni təqvim ili münasibətilə xalqa müraciətində, eləcədə, bu ilin yanvar ayının 10-da yerli televiziya kanallarının müxbirlərinə verdiyi müsahibəsində cənab İlham Əliyev ölkəmizin yeni dövrə qədəm qoyduğunu və bu yeni dövrə yeni prinsiplərlə daxil olmağın lazım gəldiyini vurğulayır və bu prinsiplərin həyata keçirilməsindən ötrü Azərbaycanda sosial, iqtisadi, siyasi və mədəni bazisin olduğunu qeyd edirdi. Bu baxımdan inaqurasiya mərasimində cənab İlham Əliyevin səsləndirdiyi fikirlər dövlətimiz, xalqımız və bütün dünya azərbaycanlıları üçün yol xəritəsidir. Məhz ötən 20 il ərzində cənab İlham Əliyevin rəhbərliyi altında həyat keçirilən islahatlar, icra olunan infrastruktur layihələri, güclü iqtisadiyyatın, ordunun qurulması, daxili sabitliyin və iqtidar-xalq birliyini təmin olunması yeni dövrə yeni prinsiplərlə daxil olmaq üçün mühüm əsaslar yaradıb. Heç şübhəsiz ki, 30 ildən artıq müddət ərzində düşmən işğalında olan torpaqlarımızın məhz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında azad olunması yeni dövrün başlanmasını şərtləndirən ən mühüm amildir. Torpaqlarımızın işğal altında olduğu müddətdə "beynəlxalq güc"lər bizi çaşdırmaq üçün, başqa sözlə gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtılıb və açıq-aydın bəlli olub ki, dost kimdir, düşmən kimdir. Bu vəziyyət həm də imkan verir ki, qarşıdakı dövr ərzində daha azad, daha müstəqil və daha ötkəm siyasət yürütməklə dövlətimizin və xalqımızın yeni inkişaf mərhələsinə adlamasına nail olaq. Hazırda Azərbaycanın ixrac coğrafiyasının, eləcədə ərazilərimizdən keçən və keçəcək nəqliyyat qovşaqlarının genişləndirilməsi, şaxələndirilməsi, rəqabətədavamlı istehsal potensialının yüksəldilməsi, əhalimizin sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində müntəzəm addımların atılması, təhsil, səhiyyə, mədəniyyət sahələrindəki innovativ addımlar yeni yanaşmalar üçün baza formalaşdırıb. Düşməndən azad edilmiş ərazilərimizdə yeni quruculuq işləri, məcburi köçkünlərin öz ata yurdlarına qayıdışının yüksək səviyyədə təşkilini də bura əlavə etsək deyə bilərik ki, artıq yeni inkişaf dövrünün təməli qoyulub.

Əlbətdəki, daxili siyasətin davamı olaraq beynəlxalq aləmdə hər gün artan nüfuz və bu nüfuzun təkcə dünyadakı dəyərləri əxz etməmizlə deyil, həm də milli dəyərlərimizə söykənərək əldə etdiklərimiz xalqımızın öz tarixi ideallarını gerçəkləşdirmək baxımından da olduqca böyük əhəmiyyətə malikdir. Ulu öndər Heydər Əliyev məhz bu yanaşmanı əsas götürərək deyirdi ki; - "Azərbaycan dünyaya milli və bəşəri dəyərlərlə açılmalıdır". Artıq o dövr gəlib çatmışdır. Bu gün cənab İlham Əliyevin Qoşulmama Hərəkatının nüfuzlu beynəlxalq təşkilat çevirilməsi yolunda atdığı addımlar yeni dünya düzəninə olan zəruri ehtiyacı şərtləndirən mühüm faktorlardandır. Bundan başqa uzun əsrlərdir dünya ağalığına can atan, humanizm pərdəsi arxasında gizlənən və əslində neokolonialist yanaşmaları ilə yeni əraziləri və "beyinləri" işğal etməyə can atan antibəşəri dövlətlərin, xüsusilə münaqişə ocaqları mövcud olan regionlara selektiv yanaşma nümayiş etdirən "güclər"in məhz dövlət rəhbərimiz, dünya azərbaycanlılarının lideri, türk dünyasının böyük oğlu İlham Əliyevin sayəsində maskalarının yırtılması ölkəmizin artan nüfuzunun sayəsində mümkün olmuşdur. Lakin cənab prezidentin andiçmə mərasimində ifadə etdiyi kimi arxayın olmaq olmaz, çünki o qüvvələr dayanmayacaqlar, öz çirkin niyyətlərini həyata həyat keçirməkdən ötrü hələ çox "çalışacaqlar". Odur ki, fevral ayının 14-də cənab prezidentin Azərbaycan parlamentinin kürsüsündən ifadə edildiyi kimi; - "Elə bir gənc nəsil yetişdirməliyik ki, onlar daim milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Onların beyinlərini zəhərləmək istəyəndə heç kim uğura nail olmasın". Bəli bu gün artıq dünyada güc sahibi olmaq üçün heç də müharibələr etmək, insan qanı axıtmaq mütləq əsas deyil. Həmin regionun, yaxud ayrıca götürülmüş bir ölkənin əhalisinin beynini "ələ almaq", öz ideoloji silahlarından istifadə etməklə cəmiyyətləri yönəltmək beynəlxalq siyasətin mühüm alətinə çevrilmişdir. Cənab ilham Əliyev andiçmə mərasimində ənənələrimizə sadiqliyimiz, milli dəyərlər üzərində inşa edilən azərbaycanlı ailəsi barədə danışarkən məhz dünyadakı çirkin oyunlara müqavimətimizin istinadgahı kimi bunları nəzərdə tuturdu. Fikirini ifadə edərək qeyd edirdi ki; -"Milli-mənəvi dəyərlər bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir".

Bu gün hər birimiz dövlətimizə, xalqımıza, milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə münasibətdə məhz cənab İlham Əliyevin həyat keçirdiyi islahatları, siyasi-ideoloji xətti əsas götürməli, bütün dünyaya dövlət-xalq-iqtidar birliyinin nələrə qadir olduğunu nümayiş etdirməli, cənab prezidentin andiçmə mərasimi zamanı səsləndirdiyi fikirlərin tariximizə qızıl hərflərlə yazılması ilə yanaşı, həm də bu fikirlərin yeni prinsiplər və çağırışlar olaraq həyata keçirilməsindən ötrü bütün qüvvəmizi səfərbər etməliyik.



**Kamil Qurbanlı, YAP rayon təşkilatının sədri**

# KƏND TƏSƏRRÜFATI

## FERMERLƏRİMİZ ÖTƏN İLİ UĞURLA BAŞA VURDULAR

Azərbaycan son illərdə Prezident İlham əliyevin rəhbərliyi ilə bir çox uğurlara imza atıb, ölkənin sosial-iqtisadi inkişafında mühüm nailiyyətlər əldə olunub. Bu nailiyyətlərin arxasında heç şübhəsiz ki, ölkəmizin ildən-ilə artan iqtisadi qüdrəti dayanır. Buna isə məhz Prezident İlham əliyevin rəhbərliyi ilə ölkədə iqtisadi inkişafın sürətləndirilməsi, əsasən də qeyri-neft sektorunun inkişafı üçün həyata keçirilən və son illərdə də uğurla davam etdirilən islahatlar nəticəsində nail olunub. Ölkə iqtisadiyyatının əsas istiqamətlərindən biri olan kənd təsərrüfatında da önəmli islahatlar reallaşdırılıb, mühüm nailiyyətlər əldə olunub.2023-cü ildə respublikada olduğu kimi, əsaslı artım rayonumuzda da aqrar sahənin bütün istiqamətləri üçün xarakterik olmuşdur. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzi olaraq 2023-cü ildə sektorlar və yerli qurumlar tərəfindən aqrar sahədə qarşıya qoyulan vəzifələrin reallaşdırılması üçün mühüm addımlar atılmışdır.

Ən əsası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən müəyyən olunmu əsas prinsiplər- fermerlərə yaxınlıq, şəffaflıq, səmərəli idarəetmə, innovativ texnologiyaların tətbiqinin təşviqi prioritetlərimiz olmudur,eyni zamanda fermerlərlə münasibətdə yeni mərhələyə- fermerlərin iinin istiqamətləndirilməsi ilərinə start verlmidir. 2023-cü ildə aqrar sahədə həyata keçirilən ilərə nəzər salaq.Məlum olduğu kimi, kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması üçün yeni qaydalar təsdiqlənmişdir. Artıq subsidiyalar alternativsiz olaraq “Elektron kənd təsərrüfatı” sistemi üzərindən verilir. 2023-cü ilin məhsulu üçün bu sistemdə 10976 fermer 20071 torpaq sənədini qeydiyyatdan keçirmi, 39272.6 ha sahədə payızlıq, 5961 ha sahədə çoxillik, 7615 ha sahədə yazlıq bəyanlarını təqdim etmilər.

Ötən ildə 9261 kənd təsərrüfatı məhsulları istehsalçısına 43,1 min hektar sahədə becərdikləri əkinlərə və çoxillik əkmələrə görə dövlət büdcəsinin vəsaiti hesabına 8646,8 min manat məbləğində əkin subsidiyası, 131 kənd təsərrüfatı məhsulları istehsalçısına 1,2 min hektar sahədə becərdikləri təkrar əkinlərə görə dövlət büdcəsinin vəsaiti hesabına 120,1 min manat məbləğində subsidiya verilmidir. 93 pambıq istehsalçısına 2022-ci ildə istehsal edib pambıq emalı ilə məşğul olan şəxslərə təhvil verdikləri 1395,1 ton (kondisiya çəkisində) xam pambığa görə 237,2 min manat və 752 pambıq istehsalçısına 2023-cü ildə istehsal edib pambıq emalı ilə məşğul olan şəxslərə təhvil verdikləri 16057,1 ton (kondisiya çəkisində) xam pambığa görə 3050,9 min olmaqla ümumilikdə 3288,02 min manat subsidiya verilmidir.2023-ci ildə 32924.7 hektar taxıl sahəsindən, o cümlədən 10317.0 hektar buğda və 22607.7 hektar arpa sahəsindən 96460.0 ton məhsul toplanmış, müvafiq olaraq məhsuldarlıq 32.2 sentner və 28.0 sentner,orta məhsuldarlıq isə 29.3 sentner olmudur. Bu da əvvəlki illə müqayisədə 2% çoxdur.2023-cü ildə rayonda 6745.8 hektar sahədə pambıq əkini aparılmış, 18517.2 ton pambıq istehsal edilmiş, orta məhsuldarlıq 27.4 sentner olmuşdur.Bu göstərici rayonda son iki ildə pambıq məhsulunun müahidə olunan məhsuldarlığından ( 24 sentner) 3.4 sentner çox olmuşdur.

Əkinlərin suvarılması ilə bağlı “Meliorasiya” ASC-nin yerli qurumu ilə əməkdaşlığımız davam etdirilir və pambıq əkinlərinin vegetasiya suyu ilə təmin edilməsi üçün ciddi tədbirlər görülməsi nəticəsində 1 hektara düən suvarma 2022-ci ildəki 1.9 dəfədən 2023-cü ildə 2.4 dəfəyədək artmışdır. Görülən tədbirlər nəticəsində pambığın məhsuldarlığı əvvəlki illərə nisbətən yuxarıda qeyd edildiyi kimi hər hektara 3.4 sentner artmışdır. Günəbaxan əkini 2022-ci ildə 179.0 hektar təşkil etsə də, 2023-cü ildə bu əkin fermerlərimiz tərəfindən digər yazlıq əkinlərə, xüsusən pambıq əkininə üstünlük verilməsi ilə əlaqədar 59.8 hektaradək azalmışdır. Bostan-tərəvəz əkinlərində də son illərdə artan maraq müahidə olunur. 2023-cü ildə rayonda təkrar əkinlərlə birlikdə 2149.5 hektar sahədə əkin aparılmış, məhsuldarlıq 292.4 sentner təkil etmidir. Bu 2022-ci ildə 1284,0 hektar təkil etmidir.2023-cü ildə heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması işləri davam etdirilmiş, 570 heyvan sahibinin 953 baş heyvanı süni mayalandırılaraq 371 baş buzov əldə olunmudur. Bu sahədə geriləmələrimiz var və bununla bağlı heyvandarlıq sektoru əməli ilərə start vermidir.

Bütün bunlar onu deməyə əsas verir ki, aqrar sahənin inkişafı üçün geniş imkanlar var və ölkə başçısının rəhbərliyi ilə aparılan islahatlar növbəti illərdə də uğurla davam edəcək, Azərbaycanın gündən-günə çiçəklənməsinə, insanlarımızın maddi rifah halının yaxşılaşmasına öz töhfəsini verəcək.

**Nurəddin Quliyev,**
**Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru**

## 2023-CÜ İLDƏ KƏND TƏSƏRRÜFATINDA STATİSTİK GÖSTƏRİCİLƏRİMİZ

**2023-cü ildə kənd təsərrüfatı üzrə məhsul buraxılışının həcmi 177543,5 min manat təşkil etmişdir ki, onun da 64976,7 min manatı heyvandarlıq, 112566,8 min manatı isə bitkiçilik məhsullarının payına düşmüşdür.**

2023-cü ildə bitkiçilikdə kənd təsərrüfatı məhsullarının istehsalı 49514,72 hektar əkin sahəsindən istehsal edilmişdir. 2022-ci ildə isə bitkiçilikdə kənd təsərrüfatı məhsullarının istehsalı 51423,69 hektar əkin sahəsindən toplanıb. 2023-cü ildə 2022-ci ilə nisbətən 3,71 faiz az əkin sahəsindən bitkiçilik məhsulları istehsal edilmişdir. 2023-cü ildə cəmi əkin sahəsinin 275,10 hektarı və ya 0,55 faizi dövlət kənd təsərrüfatı müəssisələrinin, 12269,10 hektarı və ya 24,78 faizi qeyri-dövlət kənd təsərrüfatı müəssisələrinin, 36970,52 hektarı və ya 74,67 faizi ailə kəndli və ev təsərrüfatlarının payına düşür.

2023-cü ildə məhsulu yığılmış əkin sahəsinin 32924,65 hektarı, yəni 66,50 faizi payızlıq, 16590,07 hektarı, yəni 33,50 faizi isəyazlıq bitkilərin əkin sahəsi olmuşdur.

2023-cü ilin məhsulu üçün 2022-ci ilin payızında əkilmiş 39296,70 hektar payızlıq dənlilərin hamısı dən üçün əkilmişdir (o cümlədən 11803,20 hektar buğda, 27493,50 hektar arpa). Yaz əkini qurtaranadək əkilmiş buğda sahəsinin 1486,17 hektarı, arpa sahəsinin 4885,88 hektarı tamamilə məhv olmuşdur. Yaz əkininin axırınadək salamat qalmış 32924,65 hektar payızlıq dənlilərin 10317,03 hektarı buğda, 22607,62 hektarı arpa əkini sahəsi olmuşdur. 2023-cü ilin məhsulu üçün (dən üçün) olan 32924,65 hektar payızlıq dənlilərin 275,10 hektarı və ya 0,84 faizi dövlət, 8068,10 hektarı və ya 24,50 faizi qeyri-dövlət kənd təsərrüfatı müəssisələrinin, 24581,45 hektarı və




ya 74,66 faizi ailə kəndli və ev təsərrüfatlarının payına düşür. 10317,03 hektar payızlıq buğda sahəsinin 3649,00 hektarı bərk buğdanın, 6668,03 hektarı yumşaq buğdanın əkin sahəsi olmuşdur.

2023-cü ildə 2022-ci illə müqayisədə 1271,22 ha az sahədə yazlıq bitkilər əkilmişdir. Bu müqayisəni yazlıq bitki növləri üzrə aparsaq görərik ki, 2023-cü ildə 2022-ci illə müqayisədə 259,10 hektar sahədə və ya 440,60 hektar az sahədə dən üçün qarğıdalı, 14,00 hektar sahədə və ya 3,0 hektar çox sahədə vələmir, 221,20 hektar sahədə və ya 166,40 hektar çox sahədə paxlalılar, 6745,8 hektar sahədə və ya 713,07 hektar az sahədə pambıq, 198,00 hektar sahədə və ya 107,00 hektar az sahədə şəkər çuğunduru, 59,80 hektar sahədə və ya 119,20 hektar az sahədə dən üçün günəbaxan, 132,60 hektar sahədə və ya 3,90 hektar çox sahədə kartof, 1414,30 hektar sahədə və ya 90,40 hektar çox sahədə tərəvəz, 87,60 hektar sahədə və ya 12,50 hektar çox sahədə bostan, 7467,67 hektar sahədə və ya 144,35 hektar az sahədə çoxillik ot bitkiləri əkilmişdir. Keçmiş illərdə əkilmiş çoxillik ot bitkilərinin 17,0 hektarı tamamilə məhv olmuşdur.

2023-cü ildə əkin altında olan sahələrdən 104080,0 ton dənli və dənli paxlalılar (o cümlədən 5363,8 ton təkrar əkindən), (o cümlədən 33191,0 ton buğda, 63269,0 ton arpa, 7102,8 ton dən üçün qarğıdalı (o cümlədən 5251,0 ton təkrar əkindən), 28,0 ton vələmir, 4,2 ton darı (hamısı təkrar əkindən), 485,0 ton paxlalılar (o cümlədən 108,6 ton təkrar əkinlərdən), 132,1 ton dən üçün günəbaxan, 2024,0 ton kartof, 44054,7 ton açıq və örtülü torpaqlardan tərəvəz (o cümlədən 5327,7 ton təkrar əkinlərdən və 130,6 ton örtülü torpaqlarda olan tərəvəz əkinlərindən), 1243,0 ton ərzaq üçün bostan bitkiləri




(o cümlədən 56,5 ton təkrar əkindən), 8923,4 ton şəkər çuğunduru (o cümlədən 3658,4 ton təkrar əkindən), 18538,98 ton pambıq, 80458,0 ton yem bitkiləri (o cümlədən 3100,1 ton təkrar əkindən), 9138,5 ton meyvə və giləmeyvələr, 1463,6 ton üzüm istehsal olunmuşdur.

2023-cü ildə məhsulu yığılmış sahələrdə orta məhsuldarlıq göstəriciləri dənli və dənli paxlalılarda 29,5 sentner (o cümlədən buğdada 32,2 sentner, arpada 28,0 sentner, dən üçün qarğıdalıda 71,5 sentner, vələmirdə 20,0 sentner, dənli paxlalılarda isə 17,0 sentner), dən üçün günəbaxanda 22,1 sentner, kartofda 151,1 sentner, tərəvəzdə 275,3 sentner, bostanda 135,4 sentner, şəkər çuğundurunda 265,9 sentner, pambıqda 27,5 sentner olmuşdur.

2023-cü ildə 2022-ci ilə nisbətən orta məhsuldarlıq göstəricisi dənli və dənli paxlalılarda 0,2 sentner çox (o cümlədən buğdada 0,6 sentner, arpada 0,3 sentner, qarğıdalıda 17,9 sentner çox, dənli paxlalılarda 11,3 sentner az), kartofda 3,1 sentner, bostanda 0,1 sentner, dən üçün günəbaxanda 2,9 sentner, pambıqda 3,5 sentner çox, tərəvəzdə 127,7 sentner az olmuşdur.

01 yanvar 2024-cü il tarixinə rayon üzrə bütün təsərrüfat kateqoriyalarında 40419 baş iribuynuzlu mal-qara, o cümlədən 19509 baş inək və camış, 140595 baş qoyun və keçi mövcud olmuşdur. 01 yanvar 2024-cü il tarixinə rayon üzrə mövcud olan iribuynuzlu mal-qaranın 38797 başı ( 96,0 % ), o cümlədən inək və camışların 19364 başı ( 99,3 %), qoyun və keçilərin 135486 başı (96,4%) ailə kəndli və ev təsərrüfatlarında saxlanılır.

01 yanvar 2024-cü il tarixinə bütün təsərrüfat kateqoriyalarında mövcud olan mal-qaranın baş sayını 01 yanvar 2023-cü il tarixinə olan mal-qaranın baş sayı ilə müqayisə etsək görərik ki, iribuynuzlu mal-qaranın sayı 382 baş, o cümlədən inək və camışların sayı 94 baş azalmış, qoyun və keçilərin sayı isə 1528 baş artmışdır.

2023-cü ildə bütün təsərrüfat kateqoriyalarında ət istehsalı 78749 sentner (diri çəkidə), süd istehsalı 274955 sentner, yumurta istehsalı 18594 min ədəd, yun istehsalı isə 3088 sentner olmuşdur.

**Rayon Statistika İdarəsi**

# ŞƏHƏRİN KÜÇƏLƏRİNDƏ APARILAN ABADLIQ VƏ TƏMİZLİK İŞLƏRİ DAVAM EDİR



Şəhər Kommunal Müəssisələr Kombinatı və "DOST" xidmətinin əməkdaşları tərəfindən şəhərin küçələrində gündəlik olaraq aparılan təmizlik işlərindən əlavə, Rayon İcra Hakimiyyətinin tapşırığına əsasən küçələrə, yolların kənarlarına vətəndaşlar tərəfindən atılan müxtəlif adda yararsız məişət əşyaları-



nın, tullantıların, tikinti materiallarının və digər yöndəmsiz və istifadəsiz əşyaların toplanaraq məhv edilməsi işləri davam etdirilir.

Görülən işlərin davamı olaraq bu gün şəhərin Təyyarə meydanı adlanan yaşayış massivindəki M.F.Axundov küçəsində aparılaraq, ərazi vətəndaşlar tərəfindən atılan zibillərdən təmizlənib.

Aparılan təmizlik işləri ilə yanaşı vətəndaşlar arasında mütəmadi olaraq maarifləndirmə tədbirlərini də davam etdirməyimizə baxmayaraq, təəssüf hissi ilə bildiririk ki, bu gün də bəzi sakinlər tərəfindən küçələrin müxtəlif hissələrinə, hasarların önünə, yol kənarlarına tullantılar, yararsız məişət əşy-



aları və tikinti materialları atılır. Bu da şəhərimizin ümumi təmizliyinə xələl gətirməklə, təmizlik işçilərinin əlavə yüklənməsinə səbəb olur.

**ƏZİZ BİLƏSUVARLILAR!**

Xahiş edirik şəhərimizin təmiz və abad qalması, sakinlərimizin rahatçılığı naminə görülən işləri dəstəkləyərək, məişət tullantılarınızı və lazımsız əşyalarınızı küçələrdə yerləşdirilmiş zibil qutularına atın.

**Cavid Əliyev**

## RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISI APARATINDA 2024-CÜ İL ÜÇÜN VƏTƏNDAŞLARIN QƏBUL GÜNLƏRİ CƏDVƏLİ

| | | | |
|---|---|---|---|
| Başçı | Qürbətov Faiq Akif oğlu | V gün | 10.00-dan |
| Başçının birinci müavini | Cəfərli Azər Gülşan oğlu | II gün | 10.00-dan |
| Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Yunsurov Vəlahəddin Yusif oğlu | III gün | 10.00-dan |
| Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Yüzbaşova Ləman Cəbrayıl qızı | IV gün | 10.00-dan |
| Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Məmmədov Xanlar Bayram oğlu | I gün | 10.00-dan |
| Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri | Mirzəzadə Bəhruz Fizuli oğlu | I gün | 10.00-dan |
| Memarlıq və tikinti şöbəsinin müdiri səlahiyyətlərini müvəqqəti icra edən | Bədəlov Rövşən Məmmədəli oğlu | II gün | 10.00-dan |
| Hüquq şöbəsinin müdiri vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən | Nuriyev Qurban Xanalı oğlu | III gün | 10.00-dan |
| Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Astanov Elşən Əvəz oğlu | IV gün | 10.00-dan |

**Qeyd: Azərbaycan Respublikasının Milli Qəhrəmanları, Vətən Müharibəsi əlilləri, şəhid ailələri və onların ailə üzvləri, Qarabağ müharibəsi əlilləri və digər imtiyazlı vətəndaşlar növbədənkənar qəbul olunurlar.**

**Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşərsə, qəbul növbəti iş gününə keçirilir.**

**RİH başçısının, müavinlərin, şöbə müdirlərinin qəbulunda olmaq istəyən vətəndaşlar bir gün əvvəl müraciət etməlidirlər.**

**Rayon İcra Hakimiyyətinə qəbula dəvət olunanlar şəxsiyyət vəsiqəsi təqdim etməlidirlər.**

**Əlaqə telefonu: 5-01-83, 5-02-11 (daxili nömrə 119, 141)**

# DEMOQRAFİK GÖSTƏRİCİLƏR

Rayonumuzun ərazisi 1358 kvadrat kilometr, əhalisinin sıxlığı isə bir kvadrat kilometrə 78 nəfər təşkil edir.

2023-cü ildə rayon əhalisinin sayı 1074 nəfər və ya 1,0 faiz artaraq 2024-cü ilin yanvar ayının 1-i vəziyyətinə əhalinin ilkin hesablanmış sayı 106,6 min nəfərə çatmışdır. Əhalinin ümumi sayından 22,1 faizini şəhər (23,6 min nəfər), 77,9 faizini isə kənd sakinləri (83,0 min nəfər) təşkil edir. Əhalinin 50,2 faizi (53,5 min nəfər) kişilər, 49,8 faizi (53,1 min nəfər) qadınlardan ibarətdir. Əhalinin 25,4 faizi 0-14 yaşda (27,1 min nəfər), 68,2 faizi 15-64 yaşda (72,7 min nəfər), 6,4 faizi (6,8 min nəfər) 65 və yuxarı yaşda olanlardır. Əhalinin 24,0 faizini (25,6 min nəfər) 14-29 yaşda olan yeniyetmələr və gənc nəslin nümayəndələri təşkil edir.

2023-cü və 2022-ci illərin demoqrafik göstəriciləri (müqayisəli) aşağıdakı kimi olmuşdur:

*(ilkin məlumatlara əsasən)*

| Göstəricilər | nəfər | | | əhalinin hər min nəfərinə[1)] | | |
|---|---|---|---|---|---|---|
| | 2023-ci il | 2022-ci il | artım(+), azalma(-) | 2023-cü il | 2022-ci il | 2023-cü il 2022-ci ilə nisbətən, faizlə |
| Təbii artım | 1023 | 1126 | -103 | 9,6 | 10,7 | 89,7 |
| Doğulanlar | 1593 | 1648 | -55 | 15,0 | 15,7 | 95,5 |
| Ölənlər | 570 | 522 | +48 | 5,4 | 5,0 | 108,0 |
| Nikahlar | 609 | 734 | -125 | 5,7 | 7,0 | 81,4 |
| Boşanmalar | 159 | 97 | +62 | 1,5 | 0,9 | 166,7 |

1) -əmsallar il üçün hesablanmışdır

İlkin məlumatlara əsasən 2023-cü ildə 1593 körpə doğulmuş, əhalinin hər min nəfərinə hesabı ilə bu göstərici 2022-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 15,7-dən 15,0-a qədər azalmışdır.

İlkin məlumatlara əsasən 2023-cü ildə 570 ölüm halı qeydə alınmışdır. Əhalinin hər min nəfərinə hesabı ilə ölümlərin sayı 2022-ci illə müqayisədə 5,0-dan 5,4-ə qədər artmışdır.

İlkin məlumatlara əsasən 2023-cü ildə rəsmi orqanlar tərəfindən 609 nikah bağlanmış və 159 boşanma faktı qeydə alınmışdır. Əhalinin hər min nəfərinə hesabı ilə 2022-ci ilə nisbətən nikahların sayı 7,0-dan 5,7-yə qədər azalmış, boşanma faktlarının sayı 0,9-dan 1,5-ə qədər artmışdır.

**Rayon Statistika İdarəsi**

# "A" VİRUS HEPATİTDƏN NECƏ QORUNMALI?

**Son zamanlar havaların soyuması ilə əlaqədar bəzi uşaq və yeniyetmələrin, böyüklərin orqanizmində immunitetin zəifləməsi, sanitar-gigiyenik qaydalara, şəxsi gigiyena qaydalarına riayət olunmaması insanlar arasında hepatit "A" virusunun yaranmasına, yoluxmasına gətirib çıxarır.**

"A" virus hepatitin törədicisi pikornaviridaye ailəsinə mənsubdur, xarici faktorların təsirinə olduqca davamlıdır. Qaynama zamanı 5 dəqiqədə məhv olar. Otaq şəraitində quru mühitdə 1 həftə, suda isə 3-10 ay qala bilir.

"A" hepatit virusu insan orqanizmə mədə-bağırsaq yolu ilə, çirklənmiş su, qida vasitəsilə, əllə, çirklənmiş şəxsi əşyalara toxunma yolu ilə daxil olur. Mədənin selikli qişasına keçmiş virus qaraciyərə daxil olaraq orada qanı parçalayır. Xəstəliyin gizli dövrü 15-30 gündür. Sarılıq qabağı dövrü 5-7 gündür. Xəstəlik qəflətən 38-39 °C dərəcə temperatura başlayır, 1-3 gün davam edir. Qripə bənzər əlamətlər, baş ağrısı, ümumi zəiflik, halsızlıq, əzələ-oynaq ağrıları, sağ qabırğaltında ağrı, 2 gündən sonra sidiyin tünd çay rəngində olur. Gözün skleraşı sonra isə dəri saralır.

"A" virus hepatit 3-4 həftədə tam sağalır. 10% xəstələrdə isə xəstəlik 3-4 ay uzana bilir.

Xəstəliyin sarılıqlı və sarılıqsız formaları olur. Sarılıqsız forma müalicə olunmadıqca qaraciyərin sirrozu və xərçəng yaradır. Xəstələr sağlam şəxslərdən 28 gün ayrı saxlanmalı, ona qulluq edən şəxslər şəxsi gigiyena qaydalarına riayət etməli, otaqda dezinfeksiya işləri aparılmalıdır.

Yoluxmuş şəxslər 35 gün həkim nəzarətində olmalı, qaraciyərin ölçüləri, qanda hemoqlobinin səviyyəsi yoxlanılmalıdır.

"A" virusundan tam qorunmaq məqsədi ilə uşaq-yeniyetmələrə valideyinlər məktəbdə uşaqların içmələri məqsədi ilə su qabları qoymalı, yeməkdən qabaq gündə 3 dəfə əllər sabunla yuyulmalı, hərarəti olan uşaqlar məktəbə getməməli, halsız, rəngi avazımış uşaqlar dərhal həkimə aparmalı, ictimai yerlərdə, xüsusən məktəb və bağçalarda şagirdlərin əllərini yumaqdan ötrü əl-üz yuyanlar təşkil edilməlidir. Eyni zamanda sanitar-gigiyenik, əks epidemik və şəxsi gigiyena qaydalarına ciddi riayət olunmalıdır.

**Sabir ABASOV,**
**rayon GEM-in sanitar şöbəsinin müdiri**

**ELAN**

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin Sosial Xidmətlər Agentliyi tərəfindən Əliyev Ağababa Abidin oğlunun adına 24.08.2022-ci il tarixində verilmiş 007626 saylı şəhid atası vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

"MƏHSUL"

Təsisçi və baş redaktor: QƏNBƏRƏLİ BAĞIROV

Ünvan: AZ 1300. Biləsuvar şəhəri, M.İbrahimov küçəsi, 213.

Telefon: 5-16-91. əlavə 108
Mob: (050) 430-55-44
E-mail: mehsul.1931@mail.ru

Qəzetdə gedən yazılara müəlliflər cavabdehdirlər.
Sifariş 389
Tiraj: 500

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış və səhifələnmiş, "Son Dakika" mətbəəsində çap olunmuşdur.